# Xalça Muzeyində sərgi

Azərbaycan Xalça Muzeyində "Kəlağayı gülgəz, libası əlvan" adlı sərgi keçirilmişdir. Azərbaycanın əvəzsiz sənət nümunələrini, milli irsimizi qoruyan, onun təbliğini daim həyata keçirən Azərbaycan Xalça Muzeyi öz ənənəsinə sadiq qalaraq zərif sənət nümunəsi olan kəlağayılarımızı qürurla nümayiş etdirir. Sərgini Xalça Muzeyinin direktoru, Əməkdar mədəniyyət xadimi **Röya xanım Tağıyeva** giriş sözü ilə açaraq bildirmişdir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli-mənəvi dəyərlərimizin qorunmasına, ölkəmizin mədəniyyətinin inkişafına göstərdiyi yüksək dəstəyi və Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin üzvü, YUNESKO-nun, İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın qayğısı nəticəsində Azərbaycan kəlağayısının da 2014-cü il 24 noyabr tarixində YUNESKO-nun qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilməsi milli dəyərlərimizə verilən ən yüksək mükafatdır. Bununla da xalqımızın milli-mənəvi dəyərləri sistemində və adət-ənənələrimizdə kəlağayımızın mühüm mədəniyyət nümunəsi olduğunu beynəlxalq səviyyədə təsdiqlədi.



Tədbirdə Bakı Dövlət Universitetinin Psixologiya kafedrasının müdiri professor Rəna İbrahimbəyova, sənətşünaslıq üzrə professor Səbirə Dünyamalıyeva Azərbaycanın əvəzsiz sənət nümunələrinin qorunması və gələcək nəsillərə ötürülməsinin vacibliyindən söhbət açmışlar.

Sərgidə gənc kolleksiyaçılar Ruslan Hüseynov və Fuad Cəbrayılovun şəxsi kolleksiyasından olan nümunələr də nümayiş etdirilmişdir. Təqdim edilən geyimlər Şamaxı, Qarabağ, Bakı, Naxçıvan və digər bölgələri əhatə edir. Burada 250-dən artıq həm kişi, həm qadın, eləcə də uşaq geyimləri, milli geyimin ayrılmaz hissəsi olan tikmə nümunələri sərgilənir. Bu gənclər həmçinin topladıqları nümunələrin araşdırılması ilə də məşğul olurlar. Onların kolleksiyasında XVIII-XIX əsrləri əhatə edən çoxlu sayda müxtəlif tikmə, zərgərlik nümunələri, Azərbaycanın müxtəlif regionlarına mənsub olan milli geyim, geyim elementləri, baş örtükləri saxlanılır. Bu tikmə və geyim nümunələrini onlar Azərbaycanın bölgələrini gəzərək əhalidən toplamışlar.

Sərginin açılışında Azərbaycan Respublikasının Xalq artisti Gülyaz Məmmədova, əməkdar artistlər Fərqanə Qasımova, Ədalət Şükürov, saz ifaçısı Azər Xanlaroğlu, həmçinin "Muğam" televiziya müsabiqəsinin qalibləri Ramiq Bayramov, Sədəf Budaqov və digər sənətkarların ifaları iştirakçılarda xoş ovqat yaratmışdır.

"Kəlağayı gülgəz, libası əlvan" adlı sərgi bir ay davam etdiriləcəkdir.

**Rauf İLYASOĞLU,**
**"Respublika".**

Respublika.- 2015.- 3 dekabr.- S. 6.